Türküstan.- 2020.- 25-30 avqust.- S.21.

Ədəbi



Oktay ABDULLA

# Türküstanım

*Sevə-sevə yaşamaq, qəhrəmantək*
*əbədiyyətə qovuşmaq*
*Türkün Haqq işidir.*

Dağ döşündə gəzə-gəzə,
Tər bənövşə üzə-üzə.
Ərməğandı şeirim sizə,
Çəmən-çiçək dörd bir yanım,
Sevdim səni, Türküstanım!

Alnın açıq, bir vüqarsız,
Tanrım, necə bəxtiyarsızg
Yer-göy qədər elə varsız,
Qaynar təbim, qaynar anım,
Sevdim səni, Türküstanım!

Söz əhlinin məhvərisən,
Sən incisi, gövhərisən,
Sevənlərin tərəfisən,
Şan-şöhrətim, sən cəlalım,
Sevdim səni, Türküstanım!

Yolun açıq, Haqq yolusan,
Köküm, soyum çox ulusang
Tək Tanrının sən qulusan,
Fəda olsun ona canım,
Sevdim səni, Türküstanım!

Dedim, qəfil ömrüm yetməz,
Dost-tanışım birdən bilməz.
Ruhum səndə, ruhum ölməz,
Qoy çin olsun arzularım,
Sevdim səni, Türküstanım!

Bölünmüşəm dilim-dilim,
Suçum nədir, deyin, bilim?
Ana Vətən, azad dilim,
Damarımda axan qanım,
Sevdim səni, Türküstanım!

Qoy basmasın düşmən ayaq,
Türk elləri olsun oyaq.
Cümlə-cahan zəfər çalaq,
Mənim sənə var inamım,
Sevdim səni, Türküstanım!

Ancaq sözüm qarlı qışa,
Bu havası gəlmir xoşa.
Göstər barmaq, uzat qoşa,
Ümid sənə, Ərdoğanım,
Sevdim səni, Türküstanım!

Bax, burdadır sənin fərqin,
Güzgüsüsən qoca Şərqin.
Sehrindəyəm əzəmətin,
Ay cənnətim, gülüstanım,
Sevdim səni, Türküstanım!

# Ölə bilmədim

Bir riya özünə çəkirmiş məni,
Köksünün altını, lələ, bilmədim.
Xəbərsiz olmuşam sənin halından,
Aran çox sazıymış özgə malından,
Aldatdın, aldandım bilə bilmədim,
Utandım yerinə, ölə bilmədim.

Uymusan şeytana, gəlmədin yola,
Düşünmə yanımda üzün ağ ola.
Əlində əyrilik var imiş, bala,
Kamalın, amalın gərək sağ ola.
Əməlin qaranlıq – tələ, bilmədim,
Utandım yerinə, ölə bilmədim.

Gözümdə qığılcım, şimşək oynadı,
O həddə gətirdin, içim qaynadı.
Tikələn, tamahın hansı boydadı?
Atalar düz demiş, fani dünyadı,
Tanıyıb mən səni elə bilmədim,
Utandım yerinə, ölə bilmədim.

Şəninə sağlıqlar – şərab içmişəm,
Ariflər içində tərif demişəm.
Ustadlar yanında dərsimdən beşəm,
Kəsərdə qələmi, sözü seçmişəm,
Xor baxdın, dost dedin, belə bilmədim,
Utandım yerinə, ölə bilmədim.

Mən edə bilməzdim etdiyin qədər,
Tamahın baş kəsir qılıncdan betər.
Söz əhli sözümü yerinə yetər,
Ağıldan sərsəri həddini keçər,
Baxıram halına, gülə bilmədim,
Utandım yerinə, ölə bilmədim.

Hər sözüm, hər misram gözünü çəkər,
Dizində güc qalmaz, ürəkdə təpər.

Dost-dosta verərmi bu qədər qəhər?
Olsaydım yerinə içərdim zəhər,
Möhnəti, bu dərdi bölə bilmədim,
Utandım yerinə, ölə bilmədim.

Dədə Ələsgərin öyüdü məndə,
Qismətdə varınsa, bir qara kündə.
Baş əyər haqqına, qul olar bəndə,
Bir ölçü, bir mizan görmədim səndə,
Düşmüşəm tufana, selə bilmədim,
Utandım yerinə, ölə bilmədim.

Oktay deyir dərin oldu bu yara,
Sağalmazsan loğma axtar, yüz ara.
Aqillərdən hikmət eşit, söz ara,
Dedin mənəm, yordun məni bir para,
Dən düşüb saçıma, telə bilmədim,
Utandım yerinə, ölə bilmədim.